# Bir alimin həyat hekayəsi



Həyatda hər bir insan öz ömür yolunu şərəf və ləyaqətlə keçmək üçün cidd-cəhd göstərir, istedad və fitrətinə uyğun düşüncə, məslək sahibinə çevrilmək arzusunda olur. Yaradıcı adamlarda da bu munis keyfiyyətlər xarizması həmişə prioritet məzmun kəsb edir. Həyatda daha çox əhəmiyyət verilən, gözəl sayılan davranış normaları və dəruni hisslər bu zaman onun mənəvi idealları üçün başlıca zəmin olur, ona qurub-yaratmaq şövqü bəxş edir.

Yenicə qədəm qoyduğumuz 2016-cı ilin 14 yanvar günü yəqin ki, çoxları üçün sevinc və fərəh anı yaşadan həsrətli bir məqamdır. Bu günün isti hərarətindən bir pay da 65 yaşlı ziyalı, səmimi insan, peşəkar müəllim, ustad pedaqoq kimi qəlblərdə iz salan məhsuldar tədqiqatçı-alim Vidadi Paşa oğlu Beşirova düşür. O, 1951-ci ilin məhz bu günündə Neftçala rayonunun Xolqarabucaq kəndində anadan olmuşdur. 1970-ci ildə ADPU-ya daxil olmuş və oranı 1974-cü ildə bitirmişdir. V.Beşirov 1982-ci ilə kimi Qırmızıkənd və Xəzər kənd orta məktəblərində müəllim (coğrafiya fənni üzrə), təşkilatçı və təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifələrində işləmişdir.

Yetirmələri onun müəllim fütühatından ha-

## Tanınmış tədqiqatçı-alim Vidadi Beşirovun 65 yaşı tamam olub

lallıq, təvazökarlıq, mərdlik, cəsarətlilik, işgüzarlıq, əməksevərlik, təşəbbüskarlıq, açıqgözlülük, səmimilik, səxavətlilik, həssaslıq, nəzakətlilik kimi nəcib əxlaqi keyfiyyətlər əxz edərək, ona bənzəməyə, onun kimi xeyirxah və ədalətli olmağa çalışırlar.

Müəllim adının nüfuz və şərəfini uca tutan Vidadi müəllimlə söhbətləşərkən soruşdum: "Bu sənət sizə nə vermiş, bu peşədə ən üstün cəhət nədir?". O, cavabında "Müəllim mənim üçün ideal bir şəxsiyyət, müəllimlik isə qəlbimdə ehtişamı heç vədə sönməyən parlaq ömür yoludur," - dedi.

Müəllim pedaqoji ustalığa gedən yolun əzəmətini daim hiss etməli, sənətinə, fəaliyyətinə ustadlıq xüsusiyyətləri gətirməyi bacarmalıdır. Onda ona kamil mütəxəssis, səriştəli tərbiyəçi demək olar.

Doğrudan da, Vidadi müəllimdə bu şərəfli ada sadiqlik nümunələri çoxdur. Bu da onun özünə və peşəsinə qarşı sonsuz məhəbbətindən, müəllim statusuna verdiyi böyük dəyərdən irəli gəlir.

Həyatda olduğu kimi, ailə, məktəb və cəmiyyət münasibətlərində də həmişə müəllimlik amilini müqəddəs bilən Vidadi müəllimi sevimli tələbələri məhz bu cəhətdən nümunə hesab edirlər.

O, böyüyən nəslin maariflənməsi yolunda istedad və sənət işığından həmişə parlaq zəka mədəniyyəti ilə istifadə etmişdir.

Dəfələrlə müşahidə etmişəm və həyat faktları da dönə-dönə sübut edir ki, müəllimi şöhrətləndirən, onu şagirdlərinin, tələbələrinin, həmkarlarının, valideynlərin, ümumən xalqımızın gözündə ucaldan amillərdən biri onun yüksək inam və əqidə sahibi olmasıdır. Müəllimlik fəaliyyətində təzahür edən bu durum tələbələrin dünyagörüşünün formalaşmasında, onların yüksək əxlaqi keyfiyyətlərə sahib olmasında müstəsna əhəmiyyət kəsb edir.

O, tələbələri ilə məşğul olarkən onların dərketmə və yaradıcı fəaliyyətinə ciddi fikir verir, öz fənni üzrə nəzəri bilikləri təlqin etməklə yanaşı, həm də mənimsənilən tədris materialının tərbiyəedici xarakterini, həyat və cəmiyyət üçün faydalılığını da daha çox qabardır, yaxşı insan olmağın isti nəfəsinin bu gün qazanılan uğurlardan asılı olacağını xatırlamaqla, pedaqoji proses təcrübəsinə həyatilik, xəlqilik notları gətirir. Nəticədə məşğələnin səviyyəsi yüksəlir, tələbələrdə milli və ümumbəşəri dəyərlərə bələdçilik hissi ilə formalaşma imkanları vüsət tapır.

Ömür zirvəsinin 65-ci pilləsinə yüksələn Vidadi Beşirov ustad müəllim olmaqla yanaşı, həm də elmi-pedaqoji ictimaiyyətin yüksək dəyər verdiyi məhsuldar alim, vicdanlı tədqiqatçıdır.

1982-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasına daxil olmuş, buranı bitirdikdən sonra həmin institutda kiçik elmi işçi, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində işləmişdir. 1989-cu ildə pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə "XIX əsrin ikinci yarısında Azərbaycanda pedaqoji fikrin inkişafına mütərəqqi rus pedaqoji ideyalarının təsiri" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. Elmi rəhbəri pedaqogika üzrə elmlər doktoru, professor Əjdər Ağayev olmuşdur. "Azərbaycan maarifpərvərlərinin mütərəqqi ideyalarının ictimai-pedaqoji fikrin inkişafında təsiri (XIX əsrin sonu, XX əsrin əvvəlləri)" mövzusunda elmlər doktoru proqramı üzrə dissertasiyasını tamamlayaraq müzakirə üçün aidiyyəti qurumlara təqdim etmişdir.

V.Beşirov elmi fəaliyyətə başladığı dövrdən bəri pedaqogikanın nəzəriyyəsi və tarixi problemləri üzrə ali, orta ixtisas və orta ümumtəhsil məktəbləri üçün tövsiyələr hazırlamış, özəl və dövlət tədris müəssisələri üçün proqram və dərsliklərin hazırlanmasında müvafiq işçi qrupunun tərkibində iştirak etmişdir. Bir çox metodik vəsait, elmi məqalə yazıb çap etdirmişdir. O, dövri və pedaqoji mətbuatda, radio və televiziyada təhsil, elm və mədəniyyət, əxlaq problemlərini əhatə edən aktual söhbətlərdə iştirak edir, müstəqil ekspert kimi rəy və təkliflər irəli sürür.

Vidadi müəllim məhsuldar tədqiqatçı kimi elmi-yaradıcı fəaliyyətinin bəhrəsini əks etdirən "Nəriman Nərimanovun ictimai-tərəqqi ideyalarının tarixi əhəmiyyəti və onun gənc nəslə aşılanması yolları" (1990), "Azərbaycan maarifpərvərlərinin yaradıcılığında vətənpərvərlik tərbiyəsi məsələləri" (1994), "Məktəbin ailə ilə əlbir işinin demokratik əsaslar üzrə təşkili" (1994) və kollektiv əməyin məhsulu olan "Pedaqogika kafedrası üzrə təhsil proqramı (Kurikulum)" (2005), "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğəti" (2005), "Milli pedaqogikada elmi yeniliklər" (2014) adlı tədris vəsaitlərinin hazırlanmasında iştirak etmişdir.

Onun mənəvi-etik və pedaqoji səpgili 250-dən çox qəzet və jurnal məqaləsi pedaqoji ictimaiyyətdə böyük maraq doğurmuşdur.

O, 1997-1999-cu illərdə yüksək təşkilatçılıq nümunəsi göstərərək Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun "Tədqiqatçı" Azad Həmkarlar Birliyinin sədri, 1998-1999-cu illərdə isə ictimai əsaslarla AETPEİ-nin nəzdində fəaliyyət göstərən Birləşdirilmiş-ixtisaslaşdırılmış Müdafiə Şurasının elmi katibi olmuşdur.

Vidadi Beşirov hazırda Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasında dosent vəzifəsində çalışır. Pedaqogika üzrə fəlsəfə doktoru kimi respublikada fəaliyyət göstərən Müdafiə Şuralarının işində opponent və məsləhətçi kimi fəal iştirak edərək gənc tədqiqatçıların formalaşmasında obyektivlik nümunəsi göstərir. Son illərdə o, milli-mənəvi dəyərlərimizlə bağlı uğurlu axtarışlarını davam etdirir.

Azərbaycan xalqı üçün müəllim müqəddəs, toxunulmazdır. Azərbaycan dünyada yeganə ölkədir ki, peşəsindən asılı olmayaraq xalq arasında sayılıb-seçilən şəxsə müraciət ediləndə "müəllim" sözü dilə gətirilir. Həyatda ən müdrik insanlıq yolu sanballı, etibarlı müəllim əməyindən nəşət tapır. Müəllimlik yalnız hər hansı fənnin tədrisi ilə məhdudlaşdırılmır, xalqın gözündə, o cümlədən şagirdlərin, tələbələrin gözündə əsl müəllim dərin elmi biliyə, sırf əxlaqa, geniş dünyagörüşə; valideynlər və həmkarları arasında dərin hörmət qazanmağa qabil olan şəxslər kimi nəzərdə tutulur.

Unudulmaz Həsən bəy Zərdabi xatırladır-dı: "Əgər məndən soruşsaydılar ki, ən şərəfli sənət hansıdır, mən o zaman iftixarla belə deyərdim: "müəllimlik".

Dərin elmi bilikləri və mənəvi keyfiyyətləri qazanmağın gözəlliyini məhz müəllim ömründən əxz edən həmkarımız, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vidadi Paşa oğlu Beşirov da 65 illik həyatının 40 ilindən çoxunu bu peşənin müqəddəsliyində görmüş, ən maraqlı yaşam incilərini, nailiyyətlərini bu adın işığında qazanmışdır.

Biz də əməyinə, çoxçeşidli fəaliyyətinə elmi-pedaqoji ictimaiyyətin böyük dəyər verdiyi sevimli həmkarımızı yubileyi münasibəti ilə təbrik edir, ona bundan sonra da yaradıcı ruh, nikbin ovqat arzulayırıq.

**İlham CAVADOV,**
*TPİ-nin şöbə müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*